TARİX elmləri

UOT 94 "19/..."
DOI: https://doi.org/10.30546/19063.2026.06.5306

GÜRCÜSTAN RESPUBLİKASININ MÜSTƏQİLLİYİNİN BƏRPASI – MİLLİ MÜNAQİŞƏLƏRİN TƏSİRİ KONTEKSTİNDƏ

QABİL ƏLİ OĞLU ƏLİYEV
Bakı Dövlət Universiteti,
Azərbaycan Universiteti,
Tarix elmləri doktoru, professor
Bakı ş., Ceyhun Hacıbəyli küç., 71
https://orcid.org/0000-0002-2372-5907
E-mail: qabilalioglu1956@gmail.com

XÜLASƏ

XX əsrin 80-ci illərində Sovet rəhbərliyinin başlatdığı yenidənqurma, aşkarlıq, plüralizm siyasəti Gürcüstanda milli oyanışa, millətçi çıxışların güclənməsinə gətirib çıxardı. Buna qarşı Moskvanın diqtəsi ilə Abxaziya və Cənubi Osetiyada etnik zəmində seperatçı çıxışlar geniş miqyas aldı. Nəticədə Gürcüstanda milli hərəkat Moskvanın tabeliyindən qurtulmaq uğrunda mübarizəyə çevrildi. 9 aprel 1989-cu ildə Tbilisidə dinc mitinqin silah gücünə dağıdılmasından sonra müxalifətçi "Dəyirmi stol"un müstəqilliyin bərpası tələbi gürcü cəmiyyətinin əsas şüarı kimi irəli sürüldü. Təqdim edilən məqalədə Cənubi Qafqazda ilk olaraq müstəqilliyini bərpa edən Gürcüstanda gürcü-abxaz və gürcü-osetin münaqişələri Rusiyanın birbaşa iştirakı ilə qanlı toqquşmalara çevrilməsi araşdırılmışdır.

Açar sözlər: *Gürcüstanda millətçi çıxışlar, Abxaziya və Cənubi Osetiyada separatçı çıxışlar, müxalifətçi "Dəyirmi stol", Zviad Qamsaxurdiya, 9 aprel hadisəsi, müstəqilliyin bərpası.*

GİRİŞ

XX əsrin 80-ci illərində Sovet İttifaqının iqtisadi, siyasi və mənəvi həyatında böhranlı vəziyyət dərinləşməkdə idi. İstehsalın artım sürəti, səmərəliliyi, əməyin məhsuldarlığı durmadan aşağı düşməkdə idi. Mövcud idarəçiliyin mənəvi dayağı olan ehkamçı kommunist ideologiyası iflasa uğramışdı. Milli respublikalarda milli özünüdərk, milli hüquqların tapdalanmasına, sərvətlərin talan olunmasına etiraz əlamətləri güclənməkdə idi. Aydın görünürdü ki, təkpartiyalı siyasi sistemi, inzibati amirliyi ləğv etmədən, müttəfiq respublikaların suveren hüquqlarını genişləndirmədən iqtisadiyyatı dirçəltmək, böhran meyillərinin qarşısını almaq mümkün deyildir. Sovet İttifaqında hakim Kommunist Partiyası rəhbərliyi dövləti mövcud böhranlı vəziyyətdən xilas etmək üçün bir sıra cəhdlər göstərdi. 1985-ci ildə Sovet İttifaqı rəhbərliyinə gələn Mixail Qorbaçov "yenidənqurma, aşkarlıq, plüralizm" şüarlarını irəli sürərək, cəmiyyətin demokratikləşdirilməsi xəttini həyata keçirməyə başladı.

Sovet dövlətindəki mövcud böhranlı vəziyyətin düzgün qiymətləndirilməsi, bu durumdan çıxış yollarının da doğru müəyyənləşdirilməsi kimi müsbət dəyərləndirilən bu siyasi xətt M.Qorbaçovun həyata keçirdiyi qeyri-ardıcıl, ziddiyyətli tədbirlər nəticəsində yarımçıq qaldı, ümumi narazılığın daha da güclənməsinə gətirib çıxardı. İnzibati amirlik siyasətinin yumşaldılması istiqamətində atılan addımlar isə qatı millətçi, separatçı, sovet hakimiyyətindən narazı qüvvələrin fəallaşmasına və son nəticədə nəhəng bir dövlətin süqutuna gətirib çıxardı.

Sovet rəhbərliyi 1980-ci illərin ikinci yarısında müttəfiq respublikalarda getdikcə güclənən milli oyanışı əngəlləmək, mərkəzdənqaçma meyillərinin qarşısını almaq üçün ənənəvi "parçala, hökmranlıq et" siyasətindən geniş istifadə etməyə, milli münaqişə ocaqları yaratmağa, xalqlar arasında nifaq salmağa girişdi. Kreml Cənubi Qafqazı, xüsusən də Gürcüstanı nəzarətdə saxlamaq üçün Cənubi Osetiyada, Abxaziyada separatçı qüvvələri qızışdırdı. Sovet İttifaqını zəiflətmək üçün daxildə milli münaqişələr törətməyi mühüm vasitə hesab edən Qərb dövlətləri də bu işdə fəal iştirak etdilər.

Təqdim edilən məqalədə Sovet İttifaqının dağılması və Gürcüstanda yenidən müstəqil dövlətçiliyin bərpası prosesi, bu hadisələrdə etnik münaqişələrin rolu araşdırılmışdır. Tədqiqat zamanı ilkin mənbələrə, rəsmi sənədlərə istinad etməklə elmi obyektivliyi qorumağa, oxuculara yoxlanmış, səhih bilgi verilməsinə səy göstərilmişdir.

Müstəqillik ərəfəsində. Sovet rəhbərliyinin 1980-ci illərin ortalarında aşkarlıq, yenidənqurma, fikir müxtəlifliyinə hörmətlə yanaşılması, cəmiyyət həyatının demokratikləşdirilməsi istiqamətində digər tədbirləri Gürcüstanda milli oyanışa təkan verdi. Respublikada yaşayan digər xalqlar da öz milli hüquqlarını qorumaq uğrunda mübarizəyə başladılar. 1988-ci noyabrın 3-də Gürcüstan KP MK respublikanın bütün məktəblərində gürcü dilində təhsili genişləndirməyi nəzərdə tutan Dövlət Proqramı la-

yihəsini irəli sürdü. Gürcüstanda ali məktəbə daxil olmaq istəyən hər kəsin gürcü dilindən imtahan verməsi qaydası qoyuldu. Gürcü tarixi abidələrinin qorunması, gürcü milli bayramlarının dövlət səviyyəsində qeyd edilməsi, gürcülərdən ibarət milli hərbi hissələr yaradılması üzrə qərarlar qəbul edildi. Abxaziyada başlayan separatizm meyillərini önləmək üçün bu regiona gürcülərin köçürülməsi geniş miqyas aldı [4].

Sovet hakimiyyəti illərində Gürcüstanın kommunist rəhbərliyi Abxaziyaya gürcülərin köçürülməsini məqsədyönlü şəkildə həyata keçirmişdi. Bunun nəticəsi idi ki, 1989-cu ildə keçirilən sonuncu ümumittifaq siyahıyaalmasına görə, Abxaziyada 537 min nəfər əhali yaşayırdı və onun da 240 min nəfərini (45 faiz) gürcülər, 93 min nəfərini (17 faiz) abxazlar təşkil edirdi [7, c.110]. Ona görə də, həm Abxaziya MSSR-də, həm də Cənubi Osetiya MV-də Gürcüstan hakimiyyətinin bu addımı ciddi narahatlıqla qarşılandı.

Bu tədbirlər Gürcüstanda yaşayan milli azlıqları, xüsusən abxazları və osetinləri qıcıqlandırdı. Abxazların radikal millətçi nümayəndələri 1989-cu il martın 18-də Lıxnı kəndində Abxaziya MSSR-in Gürcüstan SSR-in tərkibindən çıxmasını və RSFSR-ə qatılmasını tələb etdilər. Cənubi Osetiya Muxtar Vilayətində 1988-ci ilin noyabrında yaradılmış Osetiya "Adamon Nıxas" ictimai hərəkatı da öncə Muxtar respublikaya çevrilmək, daha sonra isə Gürcüstan SSR-dən ayrılaraq, RSFSR-in tərkibində olan Şimali Osetiya MSSR-ə birləşmək tələbini irəli sürdü. Şimali və Cənubi Osetiyanın birləşdirilməsi məsələsinə baxılması üçün SSRİ Nazirlər Sovetinə, Ali Sovetinə və Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinə müraciət ünvanladı. Gürcüstanda milli-azadlıq hərəkatının genişlənməsindən narahat olan Moskva abxazların və osetinlərin millətçi çıxışlarını dəstəklədi. Belə bir mövqenin heç bir hüquqi əsası yox idi. 1977-ci ildə qəbul edilmiş sonuncu SSRİ Konstitusiyasının 78-ci maddəsində yazılmışdı ki, müttəfiq respublikanın ərazisi onun razılığı olmadan dəyişdirilə bilməz. Müttəfiq respublikalar arasında sərhədlər müvafiq respublikaların qarşılıqlı razılığı ilə Sovet Sosialist Respublikaları İttifaqı tərəfindən ratifikasiya (təsdiq olunma) edilərək dəyişdirilə bilər [5, c.339].

Mərkəzin bu mövqeyi Gürcüstanda sovet rəhbərliyi əleyhinə kütləvi nümayiş və mitinqlər keçirilməsinə səbəb oldu. Tbilisidə və digər şəhərlərdə abxazlara və osetinlərə qarşı zorakılıq halları baş verdi. Gürcüstanda başlanan milli oyanış tezliklə sovet quruluşuna qarşı, itirilmiş müstəqil dövlətçiliyin bərpası uğrunda milli-azadlıq mübarizəsinə çevrildi.

Gürcü millətçi nümayəndələrinin təşkil etdikləri mitinqlərdə Gürcüstanın müstəqilliyinin bərpa edilməsi tələb olunmağa başladı.1989-cu il aprelin 4-də gürcü milli hərəkatının lideri Zviad Qamsaxurdiyanın başçılığı ilə Tbilisinin mərkəzi meydanında fasiləsiz mitinq başladı. Mitinqdə Əfqanıstan müharibəsi veteranları, idmançı və fiziki cəhətdən güclü gənclərdən "Gürcü qartalları legionu" yaradılmasına və silah alınması üçün pul toplanmasına başlandı. Aprelin 6-da mitinqdə "Rədd olsun kommunist rejimi!", "Rədd olsun rus imperializmi!", "SSRİ – xalqlar həbsxanasıdır!", "Rədd olsun Sovet hakimiyyəti!" şüarları səsləndi. Aprelin 7-də Gürcüstan KP MK birinci katibi Cumber Patiaşvili Moskvaya müraciət etdi ki, Tbilisiyə əlavə hərbi qüvvələr göndərilsin. Ertəsi gün Dzerjinski diviziyasının Spitakda (Ermənistanda) olan 4-cü alayı (650 nəfər), Tbilisidəki 8-ci moto-piyada alayı (650 nəfər) da daxil olmaqla 2550 nəfər hərbçi Tbilisidə mitinqi dağıtmaq əməliyyatına cəlb edildi [8].

Sovet rəhbərliyinin tapşırığı ilə 1989-cu il aprelin 9-da Tbilisidə Hökumət evi qarşısında keçirilən mitinqi dağıtmaq üçün şəhərin mərkəzinə qoşun hissələri yeridildi. Cənubi Qafqaz hərbi dairəsinin komandanı və Gürcüstanda müstəqillik tələbi ilə kütləvi aksiyalar başlayanda, həm də Tbilisi şəhərinin hərbi komendantı təyin edilmiş general-polkovnik İqor Radionovun əmrinə əsasən hərbçilər mitinq iştirakçılarını zorla meydandan qovmağa başladılar. Bu zaman istifadə edilən "çeremuxa" gözyaşardıcı və "si-es" boğucu qumbaralarının, kiçik bellərin və rezin dəyənəklərin zərbələri ilə 21 günahsız insan (əksəriyyəti qadınlar olmaqla – Q.Ə.) öldürüldü, 183 nəfər yaralandı [8]. Bu qanlı hadisə Gürcüstanda milli qüvvələrin konsolidasiyasına, müstəqil dövlətçiliyin bərpası uğrunda mübarizənin güclənməsinə səbəb oldu. Müstəqilliyin bərpasından sonra 9 aprel ölkədə milli birlik, vətəndaş həmrəyliyi və Vətən uğrunda həlak olanların xatirəsinin anılması günü kimi qeyd edilməyə başlanmışdır.

Nümayişçilərə qanlı divan tutulması Gürcüstanda anti-Rusiya əhvali-ruhiyyəsini gücləndirdi, milli müstəqillik uğrunda mübarizənin genişlənməsinə səbəb oldu. Moskvanın göstərişi ilə Sovet qoşunlarının 1989-cu il aprelin 9-da Tbilisidə Gürcüstanın SSR-in gürcü milli-azadlıq hərəkatının liderlərinin o dövrdə adlandırdıqları kimi – *"Modernləşdirilmiş Rusiya imperiyasının" tərki*bindən çıxmasını tələb edən mitinqin amansızlıqla dağıdılması Gürcüstan cəmiyyətini sarsıtdı və "Moskvadan ayrılmaq" ideyasını mübahisəsiz və qəti bir prioritetə çevirdi [3].

Üstəlik, əksəriyyəti qadınlar olan bu qırğın sovet deyil, məhz rus fenomeni ilə əlaqələndirildi, çünki daxili qoşunların əsgərlərinin əksəriyyətini məhz ruslar – SSRİ-nin titullu xalqının nümayəndələri təşkil edirdi. 1989-cu ilin dekabrında SSRİ xalq deputatlarının qurultayında çıxış edən Gürcüstan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Givi Qumbaridze (aprel ayında o, respublika DTK-sının rəhbəri vəzifəsini tuturdu – Q.Ə.) məhz bu cəhəti xüsusi vurğuladı ki, bir çox əsgərlər mitinqi dubinkalar və istehkamçı kürəkləri ilə dağıdarkən: "Bu da sizə Stalinə görə, Beriyaya görə" – deyə qışqırırdılar [3].

Bu rus zorbalığına qarşı adekvat, həm də sarsıdıcı cavab verməyin qeyri-mümkünlüyü ilə çoxalan psixoloji sarsıntı, gürcü cəmiyyətində antikommunist əhvali-ruhiyyəsindən daha çox, məhz antirus ovqatının formalaşmasına səbəb oldu. Həmçinin, Gürcüstanın suverenliyi uğrunda xalq hərəkatının antisovet və antikommunist şüarları altında deyil, əsasən antirusiya şüarları altında qeyd-şərtsiz radikallaşmasına gətirib çıxardı. Gürcüstanı sarsıdan qanlı 9 aprel hadisəsi fonunda gürcü cəmiyyəti, yerli elitaların iqtisadi, energetika və sosial problemlərin həlli üçün müxtəlif proqram və layihələrin peşəkar şəkildə hazırlanması ilə məşğul olduğu və müstəqilliyi bir məqsəd deyil, sadəcə bir vasitə kimi qəbul etdiyi Baltikyanı respublikalardan fərqli, emosiyalara əsaslanan radikal bir yol seçdi.

Gürcüstanda o zamandan etibarən siyasətdə sağlam düşüncə tamamilə itirildi, konstruktivlik bir yanaşma kimi siyasi diskussiyadan çıxarıldı, "Kremli diz çökdürək!" – çağırışları dominantlıq qazandı. 9 aprel hadisələrinin birbaşa nəticəsi Zviad Qamsaxurdiyanın lideri olduğu "Dəyirmi masa – Azad Gürcüstan" blokunun 28 oktyabr 1990-cı ildə Gürcüstan Ali Sovetinə – parlamentinə keçirilən ilk çoxpartiyalı seçkilərdə inamlı qələbəsi oldu [2, s.34]. Ali Sovetin sədri seçilən Z.Qamsaxurdiya ilk iclasda kommunistləri Ali Sovetdən qovdu. Ali Sovet Gürcüstan adından "Sovet Sosialist" ifadəsini götürdü, Gürcüstan SSR-in dövlət atributlarını Gürcüstan Demokratik Respublikasının atributları ilə əvəz etdi. Z.Qamsaxurdiya rəsmən elan etdi ki, müstəqilliyin bərpa edilməsi üçün keçid dövrü başlayır [6, s.170].

Başlanğıcda Tbilisi sovet rəhbərliyinə müraciət edərək Gürcüstanın Rusiya Qırmızı Ordusu tərəfindən işğal edilməsi və zorla Sovet İttifaqına birləşdirilməsi faktının qəbul edilməsini, danışıqlar yolu ilə Gürcüstanın müstəqilliyinin bərpa edilməsini təklif etdi. Lakin Moskva bu müraciətə reaksiya vermədi.

Müstəqilliyin bərpası. Gürcüstan 1991-ci ildə Cənubi Qafqaz respublikaları arasında ilk olaraq böyük mücadilə verərək müstəqilliyini bərpa etdi. Sovet İttifaqı rəhbərliyi bu respublikada müstəqillik uğrunda milli-azadlıq mübarizəsini boğmaq üçün muxtar qurumların separatçılığını dəstəkləməklə milli münaqişə ocaqları yaratmaq, Tbilisidə dinc nümayişçilərə qarşı ordu hissələri yeridərək qırğın törətmək və s. yollara əl atdı. Lakin gürcü xalqının Sovet Rusiyasının əsarətindən qurtulmaq üçün başlatdığı qəhrəmanlıq mübarizəsi qələbə ilə sonuclandı.

Gürcüstanın yeni rəhbərliyi SSRİ-nin saxlanması haqqında 1991-ci il martın 17-də keçirilən ümumittifaq referendumunu boykot etdi və martın 31-də Gürcüstanın dövlət müstəqilliyini bərpa etməsi haqqında referendum keçirdi. Abxaziya və Cənubi Osetiyanın seperatçı rəhbərlikləri bu qurumların referendumda iştirakına imkan vermədi. Bununla belə, referendumda iştirak edənlərin 98,93 faizi dövlət müstəqilliyinin bərpa edilməsi lehinə səs verdi. **Gürcüstan parlamenti – Ali Soveti referendumun nəticələrini əsas götürərək, 1991-ci il aprelin 9-da "Gürcüstanın dövlət müstəqilliyinin bərpası haqqında Akt" qəbul etdi.** Həmin gün ABŞ Konqresi 31 mart referendumunun legitimliyini tanıdığını bəyan etdi.

1991-ci il mayın 26-da Gürcüstanda ilk prezident seçkiləri keçirildi. Gürcü xalqının milli-azadlıq hərəkatının lideri Zviad Qamsaxurdiya prezident seçildi. Lakin onun qatı millətçi siyasəti, yüzillər boyu bu ölkədə gürcülərlə birlikdə yaşayan qeyri-xalqlara qarşı sərt ayrı-seçkilik tədbirləri ümumi narazılığı gücləndirdi. Cənubi Osetiya və Abxaziyada milli zəmində qarşıdurma alovlandı, Borçalı bölgəsində yerli azərbaycanlı əhaliyə, Cavaxetiya bölgəsində erməni əhaliyə qarşı zorakılıqlar geniş miqyas aldı.

Bu dövrdə tarixən azərbaycanlıların məskunlaşdığı 32 kəndin adı, eləcə də çay və yer adları dəyişdirildi. Azərbaycanlıların kompakt şəkildə yaşadığı bir sıra yaşayış məntəqələrində yerləşdirilən kriminal millətci hərbi qrupların yerli azərbaycanlı əhaliyə qarşı zorakılıqları gücləndi. Bunun nəticəsində azərbaycanlılar bəzi yaşayış məntəqələrini tərk etməyə məcbur oldular [1, s.258].

Z.Qamsaxurdiya hakimiyyətdə olduğu səkkiz ay ərzində gürcü ziyalıları, ictimaiyyəti və etnik azlıqlarla münasibətləri kəskinləşdirdi. Ölkənin müstəqilliyini qəbul etməyən kənar qüvvələr yaranmış siyasi böhran vəziyyətindən istifadə edərək Abxaziyada və Cənubi Osetiyada etnik separatizmi alovlandırmaqla ölkəni qanlı münaqişələrə sürüklədilər.

1991-ci il dekabrın 22-də Tbilisidə bu qatı millətçi siyasətdən narazı qüvvələri təmsil edən Gürcü Milli Qvardiyası (komandanı Tengiz Kitovani) üs-

yan qaldırdı. "Mxedrioni" hərbi dəstələri (komandanı Caba İoseliani) üsyançılara qoşuldu. Hökumət qüvvələri məğlubiyyətə uğradı. 1992-ci il yanvarın 6-da Z.Qamsaxurdiya və hökumət üzvləri Tbilisini tərk etdilər. Z.Qamsaxurdiya Qroznıya sığındı. Üsyan rəhbərləri Gürcüstanı idarə etmək üçün Hərbi Şura yaratdılar. O zamana kimi Moskvada yaşayan və böyük dövlət idarəçiliyi təcrübəsi olan Eduard Şevardnadze (1928-2014) respublika rəhbərliyinə dəvət edildi.

Eduard Şevardnadze dəvəti qəbul etdi və martın 10-da Hərbi Şuranın əvəzində yaradılmış Dövlət Şurasının sədri seçildi. O, vətəndaş müharibəsinin daha da genişlənməsinin qarşısını aldı, respublikada siyasi sabitliyin bərpasına, Rusiya ilə münasibətlərin tədricən normal məcraya düşməsinə nail oldu. Cənubi Osetiya və Abxaziyada hərbi əməliyyatlar dayandırıldı. Gürcüstanın qonşuları ilə, Avropa Birliyi və bütövlükdə Qərblə əlaqələri gücləndi.

E.Şevardnadze Rusiya ilə münasibətləri nizama salmaq üçün ilkin zəruri addımları atdı. Rusiya prezidenti B.Yeltsinə müraciət edərək MDB hərbi qüvvələrinin Gürcüstandan çıxarılmamasını xahiş etdi. Nəticədə Cənubi Qafqaz hərbi dairəsinin əsgəri kontingenti, bütün silah-sursatı və hərbi texnikası Gürcüstanda saxlandı. Həmin ilin oktyabrında keçirilən parlament seçkilərindən sonra Parlamentin sədri, noyabrın 6-da isə yeni təsis olunmuş Dövlət başçısı vəzifəsinə seçildi.

1993-cü il sentyabrın 24-də Z.Qamsaxurdiya Çeçenistanın paytaxtından Zuqdiudiyə gəldi və yenidən hakimiyyəti ələ keçirmək üçün silahlı mübarizəyə başladı. Gürcüstanda vətəndaş müharibəsi başladı. E.Şevardnadze Rusiyadan hərbi yardım xahiş etdi və əvəzində Gürcüstanın MDB-yə üzv olmasına razılıq verdi. Rus hərbi qüvvələrinin dəstəyi ilə Z.Qamsaxurdiyanın tərəfdarları məğlub edildi, Z.Qamsaxurdiya isə 1993-cü ilin dekabrında öldürüldü.

1995-ci il avqustun 24-də Gürcüstan Respublikasının konstitusiyası qəbul edildi. Həmin il noyabrın 12-də prezident və parlament seçkiləri keçirildi. E. Şevardnadze prezident seçildi. Parlament seçkilərində də E.Şevardnadzenin lideri olduğu "Gürcüstan vətəndaşları ittifaqı" çoxluq qazandı. E.Şevardnadze ilk prezident Z.Qamsaxurdiyanın hakimiyyət dövrünü *"əyalət faşizmi"* kimi dəyərləndirdi və respublikada yaşayan bütün xalqların hüquq və azadlıqlarını qoruyacağını bəyan etdi. 1998-ci ildə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşasına razılıq verdi [1, s.264-265], gürcü ordusunun NATO nümunəsində qurulması üçün ABŞ-dən hərbi mütəxəssislər dəvət etdi. Gürcüstan Respublikası Rusiya rəhbərliyindən Abxaziya və Cənubi Osetiya münaqişələrinin həllində yardım ala bilmədiyi üçün açıq şəkildə qərbyönlü siyasət yeritməyə başladı.

NƏTİCƏ

Gürcüstan Respublikasında müstəqilliyin bərpası Abxaziya və Cənubi Osetiya etnik münaqişələri zəminində baş verdi və bu, gürcü cəmiyyətinə çox baha qiymətə başa gəldi. Gürcüstan ərazisinin 20 faizini itirdi, Abxaziyada yaşayan 150 min gürcü öz doğma evini tərk edərək Gürcüstana qaçdı. Gürcü-abxaz münaqişəsinin birinci mərhələsində gürcü əhalisinin qalan hissəsi gürcü hakimiyyətinin nəzarətində qalan Abxaziyanın Qalki bölgəsinə sığınsa da 2008-ci ildə Rusiyanın Gürcüstana hərbi müdaxiləsindən sonra onlar da qaçqın düşdülər. Cənubi Osetiyadan isə 30 minə qədər gürcü qaçqın Tbilisiyə və digər gürcü şəhərlərinə qaçmaq zorunda qaldı. Ümumiyyətlə, bu etnik konfliktlər nəticəsində 278 103 nəfər məcburi köçkün vəziyyətinə düşdü.

Bu etnik münaqişələr abxaz və osetinlərə də xoşbəxtlik gətirmədi. Onlar Rusiyanın təcavüzkar siyasətinin girovuna çevrildilər. Məsələn, Şimali Osetiyaya qaçmış 12 min osetin burada yataqxanalarda və digər müvəqqəti sığınacaqlarda yaşamaqdadır [9]. Abxaziyadan qovulmuş gürcü ailələrinin evlərinə ermənilər yerləşmişlər və bütün gəlirli sahələrdə onlar çalışırlar. Həm Abxaziyada, həm də Cənubi Osetiyada yaşayan əhali anlayır ki, bu bölgələrdə Rusiyanın yardımı ilə elan edilmiş "müstəqil respublikalar" qondarmadır. Dünya birliyi həmin əraziləri Gürcüstan Respublikasının ayrılmaz tərkib hissəsi kimi qəbul edir.

ƏDƏBİYYAT SİYAHISI:

Azərbaycan dilində

1. Çıraqov F. Azərbaycan-Gürcüstan münasibətləri // Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016). Məqalələr toplusu. Bakı: "Poliart" MMC, 2017, s.253-276

Rus dilində

2. Андроникашвили З., Майсурадзе Г. Грузия-1990: филологема независимости, или Неизвлеченный опыт // НЛО, № 1, 2007 // https://magazines.gorky.media/nlo/2007/1 (дата обращения: 07.06 2026)
3. Двали Г. Начало грузинской эры // https://www.kommersant.ru/doc/3933415-06.04.2019
4. Жидков С.К. 1989: год неповиновения // http://apsnyteka.org/101-1989:god_nepovinovenia.html (дата обращения: 07.06 2026)
5. Конституция (1977) (Основной Закон) Союза

Советских Социалистических Республик. Москва, 1977, с.339 // https://www.hist.msu.ru/ER/Etext/cnst1977.htm#9 (дата обращения: 07.06 2026)
6. Мацаберидзе М. (2008), Россия и Грузия в постсоветский период: метаморфозы отношений // Центральная Азия и Кавказ, 2008, № 5 (59), с.169-174
7. Панарин С.А. Конфликты в Закавказье: позиции сторон, перспективы урегулирования, возможный вклад России // Вестник Евразии, 1999, №1-2, с.108-121
8. Разгон митинга в Тбилиси 9 апреля 1989 года // https://www.kavkaz-uzel.eu/articles/240130 -09.04.2026 (дата обращения: 07.06 2026)
9. Тарханова Ж. Нежеланное возвращение // https://www.ekhokavkaza.com/a/24612213.html-12.06.2012 (дата обращения: 07.06 2026)

ВОССТАНОВЛЕНИЕ НЕЗАВИСИМОСТИ РЕСПУБЛИКИ ГРУЗИЯ – В КОНТЕКСТЕ ВЛИЯНИЯ НАЦИОНАЛЬНЫХ КОНФЛИКТОВ

Габиль Али Алиев
Доктор исторических наук, профессор

РЕЗЮМЕ

Политика перестройки, гласности и плюрализма, начатая советским руководством в 80-х годах XX века, привела к национальному пробуждению и усилению националистических выступлений в Грузии. В ответ на это по диктату Москвы в Абхазии и Южной Осетии приняли масштабный характер сепаратистские выступления на этнической почве. В результате национальное движение в Грузии превратилось в борьбу за освобождение от подчинения Москве. После силового разгона мирного митинга в Тбилиси 9 апреля 1989 года требование оппозиционного «Круглого стола» о восстановлении независимости стало главным лозунгом грузинского общества. В представленной статье исследуется, как грузино-абхазский и грузино-осетинский конфликты в Грузии, первой восстановившей свою независимость на Южном Кавказе, переросли в кровавые столкновения при прямом участии России.

Ключевые слова: *националистические выступления в Грузии, сепаратистские выступления в Абхазии и Южной Осетии, оппозиционный «Круглый стол», Звиад Гамсахурдия, события 9 апреля, восстановление независимости.*

RESTORATION OF THE INDEPENDENCE OF THE REPUBLIC OF GEORGIA – IN THE CONTEXT OF THE INFLUENCE OF NATIONAL CONFLICTS

Gabil Ali Aliyev
Doctor of Historical Sciences, Professor

SUMMARY

The policy of perestroika, glasnost, and pluralism initiated by the Soviet leadership in the 1980s led to a national awakening and the intensification of nationalist protests in Georgia. In response, dictated by Moscow, ethnic-based separatist movements took on a massive scale in Abkhazia and South Ossetia. As a result, the national movement in Georgia transformed into a struggle for liberation from Moscow's subjugation. Following the violent dispersal of a peaceful rally in Tbilisi on April 9, 1989, the demand of the opposition "Round Table" for the restoration of independence became the main slogan of Georgian society. This article examines how the Georgian-Abkhazian and Georgian-Ossetian conflicts in Georgia—the first country to restore its independence in the South Caucasus—escalated into bloody clashes with the direct involvement of Russia.

Keywords: *nationalist protests in Georgia, separatist protests in Abkhazia and South Ossetia, opposition "Round Table", Zviad Gamsakhurdia, April 9 events, restoration of independence.*

Rəyçi: Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Elvin Talışinski

Məqalə redaksiyaya daxil olub: 14.07.2026
Çapa qəbul olunub: 11.08.2026
The date of the admission of the article to the editorial office: 14.07.2026
Accepted for publication: 11.08.2026